Azərbaycan.- 2021.- 1 aprel. S. 1; 7.

# Qarabağdakı ermənilər Azərbaycan dilini öyrənsələr, daha yaxşı olar

Azərbaycanın ayrılmaz hissəsi, xalqımızın əzəli dədə-baba yurdu Qarabağda rəsmi dil doğma ana dilimiz Azərbaycan dilidir və ermənilər nə qədər çapalasalar, təxribata əl atsalar da, min illər sonra da bu belə olacaq.

30 illik işğal ərəfəsində bu bölgəmizdə saxtakarlıqlar törədərək maddi, mədəni dəyərlərimizi məhv edərək Qarabağa yiyələnmək istəyən mənfur düşmənə Azərbaycanın şanlı ordusu dəmir yumruğu ilə cəmi 44 günə başa saldı ki, işğalçılar və talançılar bu məkrli niyyətlərinə çata bilməyəcəklər.

Buna görə də hər zaman açıq döyüşdə mərd ərənlər qarşısından qaçan bu qorxaqlar sürüsü məlum ölkəyə yaltaqlanmağa, xain planlar qurmağa cəhd edirlər. Əl atdıqları növbəti məkr isə Qarabağda rus dilinin ikinci rəsmi dil elan olunmasıdır.

Açıq-aydın görünür ki, Qarabağda bütün imkanlardan məhrum olan separatçı ermənilər bununla Rusiyanın dəstəyini qazanmaq istəyirlər. Bununla belə, qondarma rejimin tör-töküntülərinin qəbul etdiyi “qətnamə” ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın ruhuna zidd və bölgədə sülhün, əməkdaşlığın pozulmasına xidmət edən xain plandır. Və altından cızaraq qeyd edirik ki, burada ermənilərin rus dilinə “sevgi”sindən söhbət gedə bilməz.

*Ardı 7-ci səh.*

# Qarabağdakı ermənilər Azərbaycan dilini öyrənsələr, daha yaxşı olar

Əvvəli 1-ci səh.

Prezident İlham Əliyev fevralın 26-da keçirdiyi mətbuat konfransında ermənilərin rus dilinə olan əsl münasibətlərini faktlarla ortaya qoydu: “340-a yaxın rus bölməsi olan məktəbimiz var. Ermənistanda isə neçə belə məktəb var? Sıfır. Ermənistanda yalnız orada olan rus hərbi kontingentinin övladları üçün bir məktəb fəaliyyət göstərir. Onlarda hətta təqribən belə bir qanun da qəbul edilib ki, erməni uşaqları rus məktəblərinə gedə bilməz. Yəni bu, özlərinin qeyd etdiyi kimi, strateji tərəfdaşlarına olan diskriminasiya, ayrı-seçkilikdir”.

Onu da vurğulamalıyıq ki, rus sülhməramlılarının fəaliyyət göstərdiyi bölgədə bu kimi separatizmə xidmət edən addımların atılması təəssüfləndiricidir. Heç şübhəsiz, Qarabağda süni problem yaradaraq sülhə mane olmaq üçün atılan bu çirkin addım regionda yenidən qarşıdurmaların yaranmasına hesablanıb.

Elə sözügedən mətbuat konfransında İlham Əliyev bu məsələyə də son nidasını qoyub: “Bu, bir manipulyasiyadır. Hazırda Azərbaycanın o bölgəsində qeyri-qanuni olaraq özlərini rəhbər adlandıranların manipulyasiyasıdır. Onlar orada suahili dilini də Qarabağın rəsmi dili elan edə bilərlər. Bunun heç bir təsiri və nəticəsi ola bilməz. Dağlıq Qarabağ mövcud deyil və hər kəs oranı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır. Düşünürəm, bu, onların, həmin cinayətkar xunta rejiminin son nəfəsidir, son cəhdləridir ki, guya, onlar dövlətdirlər. Azərbaycanda yeganə rəsmi dil Azərbaycan dilidir və Azərbaycan ərazisində digər heç bir dilin rəsmi statusu ola bilməz”.

Bəli, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və Konstitusiyamıza əsasən, dövlət dili Azərbaycan dilidir. Buna görə də Azərbaycanda başqa heç bir dilin rəsmi statusu ola bilməz. Bu ərazidə yaşayan erməni Azərbaycan vətəndaşları da tezliklə Azərbaycan pasportu daşıyacaqlar. Ona görə indidən Azərbaycan dilini öyrənsələr, daha yaxşı olar.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***